Oxudu nəğməsini:
"Mən gələndə yağar qar,
Məndə min cür oyun var.
Şirin qar-top oyunu
Sevər uşaqlar bunu,
Məndə nələr var, nələr!
Sevər məni nənələr.
Nəvələri beşikdə,
Sevər məstan pişik də.
Soyuq qış axşamında
İsti soba yanında
Nağıl deyər nənələr,
Qulaq asar nəvələr.
Budur sözün lap düzü –
Mənəm ilin sağ gözü!"

Hərə dedi özündən:
"Hamıdan yaxşıyam mən!"
Düşdü yaman vur-haray,
Qorxudan gizləndi ay,
Ulduzlar qaldı heyran.
Səhər açılan zaman
Bu davanı eşidib
Gülümsədi al günəş, –
Bütün fəsillər gözəl,
Yaxşıdır öz yerində;
Yay, payız, qış və bahar –
Bu vətən cllərində.

SON İLLƏRİN ŞEİRLƏRİ

MƏHƏBBƏTİM BÖLÜNMƏDİ....

Birinci nəvəm oğlandı,
Bir dünya sevinc gətirdi
anadan olanda.
Ürəyimdə əvvəllər duymadığım
bir məhəbbət oyandı.
Ağlayanda,
ürəyimin başı sanki sökülürdü.
Gülüşündən hər tərəfə
qucaq-qucaq
işıq, sevinc tökülürdü.
Düşünürdüm:
Bir nəvəm də olsa,
Onu sevmək üçün
Qəlbimdəki məhəbbəti
Necə yarı bölərəyəm?
Ağlayanda kədərlənib
Qımışanda sevinəcək,
güləcəyəm...
Sonra bir qız nəvəm oldu,
Gözləri göy, üzü göyçək,
Yanaqları dağ laləsi,
Dodaqları incə çiçək...
Qələm qaşı çatılanda,
Ala gözü süzüləndə,
Hərdən incik baxıb mənə
Dodaqları büzüləndə
Qəmlənirdim dərin-dərin.
Günlərimə çiçək-çiçək

Səpilirdi gülüşləri...
Elə bil ki, ürəyimdə
Nəğmə səsi eşidirdim
O yatanda mışıl-mışıl
yatağında.
Bir cüt nəvəm böyüyürdü.
Məhəbbətim bölünmədi,
az olmadı
Oğlan nəvəm, qız nəvəmə
məhəbbətim yetər oldu,
artdı, artdı,
azalmadı.
Üçüncü qız nəvəm oldu,
Qızıl saçlı, qonur gözlü,
Şirin dilli, şirin sözlü...
Ağlayanda yanğın saldı
Ürəyimin başına o.
Hərdən məni qərq elədi
Gözlərinin yaşına o.
Duzlu, şirin, göyçək bala
Hərdən şıltaq-şıltaq oynar,
Hərdən dalar xoş xəyala...
Məhəbbətim bölünmədi,
azalmadı.
Hər üçünə yetər oldu,
az olmadı.
Bir qız nəvəm yenə oldu,
Qaşı qara, gözü qara,
Elə bil ki, nur ələndi,
nur çiləndi buludlara...
Gülüşündən könül güldü,
Ağlayanda qəm töküldü.
Gah məzəli, gah dincdi o,
Həm fərəh, həm sevincdi o.
Sevdim onu
əvvəlki üç nəvəm kimi,

Məhəbbətim azalmadı,
Dördünə də yetər oldu,
az olmadı,
Bu körpəyə məhəbbətim
Onlardan da betər oldu.

* * *

Bir-birinin ətəyindən tutub
Yolu keçən gördüm uşaqları.
Yanaqları tompul-tompul,
Nəğməliydi dodaqları.
Məhəbbətim qanadlandı,
Könlüm birdən bahar oldu.
Məhəbbətim ürəyimdə
Yenə min bir çalar oldu.
Nə qəribə duyğudur bu,
Böyük insan məhəbbəti!
Neçə saysız çalarıyla
İnsanlara, təbiətə,
Xalqa, yurda, məmləkətə,
Ulduzların karvanına,
Aya, günə,
dosta, könül həyanına,
Quşa, xallı kəpənəyə,
Əlvan, zərif gül-çiçəyə,
Bu məhəbbət paylandıqca
azalmayır,
Tükənməyir, az olmayır.
Ürəklərə işıq salır,
Ömürlərə yaz gətirir,
Qanadlanıb nəğmə olur.
Əziz mehriban ellərə
Şirin-şirin söz gətirir.

KİM GÖZƏLDİR GÖRƏSƏN

Masanın üstündə bir dəstə çiçək,
Bir-birindən təzə, ətirli, göyçək.
Hər fəslin ətirli, incə çiçəyi,
Adları nəğməli ellər göyçəyi.
Burda bir yasəmən, bir pöhrə yarpız.
Söhbət edirdilər, sakit, qayğısız.
Çiçəklər içində hansıdır qəşəng?
Ləçəkləri zərif, yarpağı ipək?
Söhbətə qoşuldu sırğalı nərgiz.
Dedi: – Ən ətirli mənəm, şübhəsiz.
Açıram payızda, qışda, yazda mən.
Səsləndi yerindən salxım yasəmən,
Dedi ətrin mənə tay ola bilməz,
Sevdiyim fəsildir mənim güllü yaz.
Qızılgül mənimlə açır yanaşı,
Ətrim bağçaları, bağları aşır.
Lalə dedi: – Sənin ətrin var, ancaq
Mən çöllərə yanğın salanda gəl bax!
Ləçəklərim incə, özüm incəyəm,
Çiçəklər içində mən birinciyəm,
Bənövşə nazlanıb boynunu burdu
Dinləyib söhbəti sakitcə durdu.
Sonra dilə gəldi, səsləndi: – Bəsdir,
Sizin söhbətiniz, məncə, əbəsdir...
Adıma nəğmələr qoşulur mənim,
Çöllər, çəmənlərdir mənim vətənim.
İnciçiçək dedi: – Mənə bax, mənə!
Bir görən deyir ki, görəydim yenə...
Mixəkgülü dedi bu səs nə səsdir,
Bu necə höcətdir, bu nə həvəsdir?!
Mənəm bağçaların sevimli qızı,
Həm sarı açıram, həm də qırmızı...
Rəngimə vurulur məni görənlər,
Ətrimdən məst olur məni dərənlər...
Beşikdə bir körpə elə bu zaman

Gözlərini açıb durdu yuxudan.
Şəfəqlər süzüldü yanaqlarına,
Bir təbəssüm qondu dodaqlarına...
Duyunca körpənin gül nəfəsini
Kəsdi o çiçəklər, güllər səsini...
Güləndə körpənin təmiz gözləri
Başını aşağı saldı hər biri,
Durub öyünmədi daha çiçəklər,
Ləçəyi incilər, üzü göyçəklər.
Heç biri demədi çox gözələm mən,
Utandı körpənin təbəssümündən...

MƏNİM ŞAİR QARDAŞLARIM

Gah əsəbi, gah yorğundur,
Gah tufanlı, gah durğundur,
Gah aşiqdir, gah vurğundur
Mənim şair qardaşlarım.

Hər məclisdə sözü vardır,
Gözəllərdə gözü vardır,
Yer üzündə bir bahardır
Mənim şair qardaşlarım.

Qürurun canlı heykəli,
Azadlığın gur məşəli,
Bağışlamaz bəd əməli
Mənim şair qardaşlarım.

Uzaqlardan gələr ünü,
Salamlayar nurlu günü,
Xalqa verər öz ömrünü
Mənim şair qardaşlarım.

Əsrlərdən verdi soraq,
Zülmətdə yandırdı çıraq,
Düşdü vətənindən iraq
Mənim şair qardaşlarım.

Qaranlığa nur ələdi,
Xalqa azadlıq dilədi,
Tarix boyu, bax, bələdi
Mənim şair qardaşlarım.

Dabanından soyuldular,
Gözlərindən oyuldular,
Zülm əliylə döyüldülər
Mənim şair qardaşlarım.

Zalımlara baş əymədi,
Gülün xətrinə dəymədi,
Zülmün yükünü çəkmədi
Mənim şair qardaşlarım.

Öz yurdunun nəfəsidir,
Zəmanənin haqq səsidir,
Söz mülkünün ustasıdır
Mənim şair qardaşlarım.

MUSA

Musa Cəlilin əziz xatirəsinə

Ürəyim şan-şan olur
Musa Cəlili xatırlayanda,
Könlüm pərişan olur
Musa Cəlili xatırlayanda.
Dərin yaralar sağalmayır
heç zaman.
Dərin ağrılarla xatırlayıram
onu hər an.
Üzdən sakit, təmkinli,
içəridən qaynayan,
Həmişə tələtümdə,
həmişə narahat bir insan...
Yanında yarı da var idi,

Bəstə boylu, badam gözlü
göycək Əminə,
Şərik olardı sevincinə, qəminə...
Şair idi Musa,
əsgər paltarı geydi
Vətən mülkünə od düşəndə,
onu şair tanıdım,
sadə gözəl bir insan tanıdım
mən də...
Şair idi, insan idi,
Ürəyində sevinci, dərdi,
Vətən qəhrəmanı olacaq
Kim deyərdi...
Kim deyərdi bu adi vətəndaş,
bu sadə insan,
Sədaqət, iradə, mətanət
timsalı olacaq bir zaman.
Adı dillərdə gəzəcək,
əfsanəyə dönəcək həyatı,
diyar-diyar dolaşacaq
şöhrəti, adı.
Bir yaz günü Moskva yaxınlığında
ləpələnirdi çiçək dəryası...
Başımızda şairlik eşqi,
bir də bahar sevdası.
Gənclik, gözəllik, təbiət aləmindəyik.
Nə bir quşun qanadını sındırdıq,
Nə bir gülün xətrinə dəydik,
Deyib, gülüb, çalıb-çağırırdıq.
O, xoştəbiət, xoşqılıq,
xoşrəftar idi.
Dəstəmiz sevincli, fərəhli,
coşqun bir bahar idi.
Sonra ocaq çatdıq,
tonqal qaladıq,
Alovun yaşıl dilləri
Sazaqlı yaz günündə
büllur kimi saf havanı yaladı.

Ocaq çatdıq, isindi əllərimiz,
Dostluq, mehribanlıq ocağında
isinirdik biz.
Xatirimdə sadə, gözəl, qaynar
təbiətiylə yaşayır Musa.
Nə olardı bu ayrılıq,
bu ölüm, bu faciəli günlər olmasa...

* * *

Faşist zindanlarının
soyuq divarları
söndürə bilmədi
şair qəlbinin alovlarını;
qoyub getdi insanlara
inamını, vüqarını,
ürəyinin hərarətini,
vətənə sonsuz məhəbbətini.
Şeirləri günəş şüaları kimi
süzülüb çıxdı Moabit divarlarından.
İnsanların qəlbinə, ruhuna axdı,
odlu misralarını insanlar
qızıl qərənfillər kimi
yaxasına taxdı.
Vüqarla dalğalanan
bayraqların al rəngində,
körpələrin gülüşündə
yaşadı Musa.
Yurdun coşqun ahəngində,
Vətənin hər işində
yaşadı Musa.

* * *

Ürəyim şan-şan olur
Musa Cəlili xatırlayanda.
Könlüm həmişə, həmişə
pərişan olur,
Musa Cəlili xatırlayanda.

ŞAİR HÜSEYN ARİFƏ

Bir ürək oxşamaq, yara bağlamaq,
İnsanlıq borcudur, analıq borcu.
Sənin ürəyinə dəyən neştərin
Mənim ürəyimə dəydi bir ucu.

Bir damcı təsəlli olsaydı sənə,
Bir dərya göz yaşı axıdardım mən,
Başının üstündən qara buludu
Qəlbimin ahıyla dağıdardım mən.

Uzatdı əlini amansız ölüm,
Körpəcə budağı sərdi torpağa.
İşıqlı dünyada beşcə gün onu
Qoymadı bir əziz qonaq olmağa.

Özgə ağrısına biganə olmaq,
Nə sənə, nə mənə yaraşmaz, qardaş.
Şair ürəyilə gəldik dünyaya,
Şair təbiətli olmayaydıq kaş.

...Mən sənə təsəlli vermirəm, qardaş,
Təsəllin yazdığın şeirlər olsun.
Sənət sarayına qoyduğun hər daş,
Sənə həm təsəlli, həm hünər olsun.

7–8 aprel, 1977

SƏNİN

Dünyadan nə qədər Ariflər gedib,
Hələ çox cavandı Arifin sənin.
Xoş gündə, dar gündə sənə arxaydı,
Könlünə hayandı Arifin sənin.

Amansız əlini uzatdı kədər,
Çəkdiyin əməyin getdi çox hədər.
Davamsız olurmuş körpə sərvlər,
Əziz, mehribandı Arifin sənin.

Neyləyək, vəfası budur dünyanın,
Alışıb yanmasın daha qoy canın.
Gələcək günüydü Azərbaycanın,
Özü bir cahandı Arifin sənin.

Mənim bir arzumu salıb yadına,
Sözdən bir abidə ucalt adına.
Qoy şair ilhamı çatsın dadına,
Nə yaxşı oğlandı Arifin sənin.

Yurdumun gəncini təsvirə başla,
Nurlu xəyalları işıqlar saçsın.
Səni incitdimsə məni bağışla,
Axı şirin candı Arifin sənin.

7-8 aprel, 1977

* * *

Kaş ki bu dünyanın kədəri, yası,
Bir boz duman kimi uçub gedəydi.
İnsan iztirabı, insan ağrısı
Göydə bulud kimi qaçıb gedəydi.

Göydən nur yağaydı, yerdən bərəkət,
Sevinc gətirəydi hər nazü-nemət.
Hər uğurlu əməl, uğurlu niyyət
Gündə bir səhifə açıb gedəydi.

Günəş isidəydi ana torpağı,
Şəfəqlər öpəydi otu, yarpağı.
Narahat dünyaya hər axşamçağı
Günəş işığını saçıb gedəydi.

* * *

Nə yaxşı dünyada vardır etibar,
Dostluğun qırılmaz telləri vardır.
Dünyanın bir yanı boran, çovğun, qar,
Bir yanı çiçəkli, güllü bahardır.

İnsan ünsiyyəti, dost hərarəti
Qızdırar, isidər bütün varlığı.
Çəkindirər bizi ümidsizlikdən,
Dostun bircə sözü, bir xoş qılığı...

Dünya insanlarla gözəldir, əlbət,
Dostluqla bəzənir Yer kürəmiz də.
Nə yaxşı çirkaba düşmədik bir an,
Təmiz duyğularla yaşadıq biz də.

Nə yaxşı dünyada vardır etibar,
Dostluğun qırılmaz telləri vardır,
Dünyanın bir üzü çovğun, boran, qar,
Bir üzü çiçəkli, nurlu bahardır.

RƏFİQƏM MƏNİM

Cənazəni qürbətdən
təyyarəylə gətirdilər.
Qapalı dəmir yatağında
vətən torpağına
yetirdilər.
Soyuq barmaqlarıyla
yapışdı ürəyimdən, –
bu dərd mənim, bu qəm mənim,
Nəzakət, Nəzakət,
əziz mehriban
rəfiqəm mənim.
İllərin arxasından
xatirələr aləminə
səsləyir məni
mələhətli səsin,
xoş gülüşün,
incə rəftarın...
Düşünən başın,
zəhmət sevən
əllərin idi dövlətin, varın.

Uşaqlıq illərimiz
yetimliklə, möhnətlə keçdi...
Gəncliyimiz
qayğıyla, zəhmətlə keçdi..
Nə dövlətli qohumların
kölgəsinə sığındıq,
nə şöhrətli dostların.
Yetim böyüdük,
dünyanın bütün
yetim uşaqları kimi –
cəfakeş, çətin...
Yaxşı adamlar da gördük –
xeyirxah, nəcib.
Əlimizdən yapışdılar
dar gündə,
büdrəməyə qoymadılar.
Bədxahlar da gördük,
fənalıqdan, yamanlıqdan
doymadılar.
Yetimliyin hər yerdə
birdir dadı...
Bu xalqın balasıydıq –
vətən övladı.
Nə ata çörəyi yedik,
nə gördük qardaş sovqatı...
Qamçıladı bizi
acı-acı
sərt üzlü yetimlik həyatı.
Tabutu qürbətdən
təyyarəylə gələn,
Soyuq, dəmir yatağında
Ömür yorğunluğundan
dincələn
Nəzakətim, rəfiqəm mənim, –
yıxdı könlüm evini
bu dərd, bu ələm mənim...
Sən həyatı sevirdin,
Sevirdin insanları...

Sevindirirdi səni
Qürbətdən uçub gələn
durna qatarı...
Gecələr göy üzünə
səpələnmiş
ulduzlara baxar,
gülümsərdin...
Elə bil yox idi
bu dünyada kədərin, dərdin.
Alman dilində
şeirlər oxuyardın
heyran-heyran...
Şeirlə nəfəs alar,
şeirlə yaşayardıq hər zaman.
Səni valeh etmişdi
alman dahisi
Hötenin romantik qanadı...
Məni "məhəbbət və iztirab" ustadı
Füzulinin səssiz fəryadı...
Toy günündə mənə
Füzuli divanını gətirdin hədiyyə.
Elə bil dünyanı
bəxş etdin mənə;
oxudum, doymadım,
içdim, doymadım yenə...
Ömrün çətin yollarında
bizə yar oldu Əli, Rəsul.
Onlar açıqürəkli,
qaynar məhəbbətli
gəncləri idi.
O zamanlar bizimlə
ünsiyyət bağlamaq,
Sadə sevgi deyil –
böyük hünər idi...
Xatirələr aləminə səsləyir yenə
Bu ayrılıq, bu qəm məni,
Nəzakət, Nəzakət,
Əziz, mehriban rəfiqəm mənim.

MÜŞKÜNAZ XANIMIN ƏZİZ XATİRƏSİNƏ

Dünyadan ən gözəl bir xanım getdi,
Elə bildim ruhdan öz canım getdi.
Bir böyük şairin ilham məbədi,
Yumdu gözlərini, yumdu əbədi...
Sındırılmış həyat, məhəbbət getdi,
Dünyadan bir vüqar, bir ismət getdi.
Gözəllik mülkünün nazlı sultanı,
Facieli ömrün qəmli dastanı.
Qəlbi bala dağlı bir ana getdi,
Ağır töhmət qoyub dövrana getdi.
Niyə axdı, niyə, günahsız qanlar
Niyə susdu, niyə, soyuq vicdanlar?!
Əsrin cinayəti açılmayacaq.
Tarix gizlədəcək varaqlarında
Sorsa da gələcək nəsillər, ancaq
Qalacaq suallar dodaqlarında...
Tarix gizlədəcək varaqlarında,
Cavab verməyəcək nahaq qanlara,
Cavab verməyəcək o dövranlara...
Əsrin vicdanında qalar bu ləkə,
Adsız şəhidlərin tökülən qanı,
Soyuq vicdanları oyadar bəlkə,
Oyadar qanlara batan dünyanı...
Dünyadan cəfakeş bir ana getdi,
Ağır töhmət qoyub zamana getdi.

Noyabr-dekabr, 1976

SAATLAR

Saatlar nə ağır keçir bu axşam
Elə bil o qaçan saatlar deyil.
Gəncliyin ətirli, coşqun çağında
Ruzgar kimi uçan saatlar deyil.

Sürünür qüssəylə, qəmlə saatlar,
Keçir ağır-ağır, geri dönməyir...
Nədəndir sinəmdə gənclik atəşi
İllər ötüşsə də yenə sönməyir.

Yenə gözəlliyə vurğundur könül,
Baharlı günlərin sorağındayam.
Bu ürək bir an da dincələn deyil,
Elə bil baharın qucağındayam.

Səhərin hüsnünə heyranam yenə,
Xəyalım pəjmürdə gəzir aləmi.
Göydən sevinc yağır, sevinc tökülür,
Qovur duman kimi kədəri, qəmi...

Arzularım böyük, meydan darısqal,
Gəzir ruzgar kimi cilovsuz xəyal,
Yaşamaq eşqiylə yenə yanıram,
Gözəllik nuruyla işıqlanıram.

* * *

Yenə axşam düşdü, hava qaraldı,
Ağac budağından bir yarpaq saldı,
Sənlə dostluğum yarımçıq qaldı,
Həsrətim, hicranım, neçin gəlmədin?

Yenə olan oldu, keçən də keçdi,
Eşqin çeşməsindən könül su içdi,
Yüz dostun içindən bir səni seçdi,
Əziz mehribanım, neçin gəlmədin?

Mən uca başımı əymərəm daha,
Ümidlə baxıram nurlu sabaha,
İnandım qəlbindən qopan bir aha,
Umidim, gümanım, neçin gəlmədin?

BİR YARALI ƏSGƏR YATIR

Amandır sükut eyləyin,
Bir yaralı əsgər yatır.
Vətəninə keşik çəkən,
Sədaqətli gözlər yatır.

Amandır səs eyləməyin,
Yaralıdır nər sinəsi,
Əsgər can verir bu gecə,
Döşündə namərd gülləsi...

Ay batır bulud içində,
Dayanın sükut içində.
Ümidsiz ümid içində
Bir yaralı əsgər yatır.

O keçdi alovdan, oddan,
O keçmədi ana yurddan,
Susun, sükut edin bir an,
Bir yaralı əsgər yatır.

Dərdi silinməz bu yasın,
Ağlasın, vətən ağlasın.
İgidlər qara bağlasın,
Bir yaralı əsgər yatır.

FÜZULİ İLƏ GECƏ SÖHBƏTİ

Ömrümün ən dərdli, qəmli çağında
Könül rübabımı çalmaq istədim.
Ey böyük ustadım, sənlə bir dəm
Baş-başa yalqızca qalmaq istədim.

Təsəllim olmuşdur əşarın sənin,
İlham çeşməsindən sular içmişəm.
Dilimdə ən böyük şüarın sənin;

Mən ömür yolumu belə keçmişəm,
Ali nəcabətin olub şahidi.

Dözümü, səbri səndən almışam,
Sənin ki, amalın çox böyük idi,
Böyük amalına sadiq qalmışam.
Səni düşünmüşəm yalqız qalanda,
Köməyimə badi-səba gəlibdir.
Səni dərk eləyib anladıqca mən,
Ömrümə bir yeni məna gəlibdir.
İnsanı pak edir, büllurlaşdırır.

O incik qəlbindən qopan hər fəğan,
Sənin əşarınla mənim gözümdə
Elə bil nurlara bürünür cahan.
Ömrüm boyu sənə səcdə qılmışam,
Səni qibləgahım, qibləm bilmişəm.
Gülüb, ağlamışam misralarınla,
Sənin varlığınla, sənin varınla,
Eşqin zəncirini səndən almışam,
Boynuma könüllü alıb salmışam.

Bir ömür əsirin olub qalmışam,
Mükafatım sənə sədaqətimdir.
Arzum, ilhamımdır, məhəbbətimdir.
Eşqin iztirabı səndən töhfədir,
O, sevmək fənnini bizə öyrədir.

Hərcayi sevdalar dünyada nədir?!
Böyük sədaqətin açarı səndə,
İsməti, ölçüsü, vüqarı səndə...
Bircə sualım var sənə, ustadım,
Qoy bədnam olmasın dünyada adım.

Məhəbbət, bilirəm sənə yardandı,
Bəs bu dərya səbrin sənin hardandı?!
Necə dözə bildin acı hicrana?!

Çox imtahan etdi səni zamana.
Düşdün yar yolunda yüz möhnətə sən,
Tapındın bir eşqə, həqiqətə sən...
Sənə sonsuz cəfa verəni sevdin,
Ayrılıq gülünü dərəni sevdin.
Daima firqətlə, hicranla yandın,
Eşqə bir abidə yaradıb qoydun,
Nə cəfadan, nə də ələmdən doydun.

Nəcib ürəyinin söndü atəşi,
Yandırdın dünyada sevda günəşi,
Eşqin iztirabı dastana döndü,
Məhəbbət bir böyük cahana döndü...

Yaşadı ayları, illəri aşdı,
Gəzdi könüllərdə, eldə dolaşdı.
Eşqə bir abidə ucaltdı əlin,
Sədaqət timsalı olan gözəlin.

İncə çiçək kimi əsdi ruzgarda,
Can verdi, məhv oldu bir son baharda.
Böyük məhəbbətə eşq olsun, ustad,
Sən verdin, sən verdin əbədi qanad.

Sənət zirvəsinə qaldırdın onu,
Əngin üfüqlərə daldırdın onu.
Qartal qanadınla göylərdə süzdün,
Eşqin cəfasına sən necə dözdün?!

Bəlayi-eşq ilə oldun bəxtiyar,
Yarın əlindəydi hökmü ixtiyar,
Eşqin ələmiylə biqərar oldun,
Gözəllik mülkündə tacidar oldun.
Sən bu dərya səbri hardan götürdün?
Əsrdən-əsrə necə ötürdün?

* * *

Qürbətmi vermişdi bu böyük qəmi...
Ağladın, ağlatdın bütün aləmi.
Dünyada ən qəmli diyar qürbətdir,
Qürbətdə yandıran səni firqətdir.
Qürbətdə açılmaz könlü insanın,
Ən qəmli yeridir qürbət dünyanın,
Çağırmaz bir əziz, doğma səs səni.

Qızdırmaz bir isti, xoş nəfəs səni.
Qürbətin uzundur qəmli dastanı
İçindən yandırar qürbət insanı.
Qürbətmi ağlatdı səni, ustadım?
Sənin qəmlərini içdim, doymadım.
Sən məğrur yaşadın dünyada, ustad!
Əymədin zalıma məğrur başını...
Sənin ürəyindən qopanda fəryad.

Aşiqlər gözünün sildi yaşını...
Səni hər kəs munis, qəmküsar bildi,
Dərdinə çarəni səndə aradı.
Yaz bulanıq axan suların üstə
Söyüdlər saçını töküb daradı...
Bir məğrur eşq ilə çırpdı ürəyin,
Yüz yerdən yüz yara aldınsa da sən,
Sənə asan gəldi kasıblıq yükü,
Sənə yüngül gəldi minnət yükündən.
Şair ləyaqəti yaşadı səndə
İnsan vüqarıyla verdi əl-ələ.
Sən şair adının ülviyyətini
Bir şan-şöhrət üçün vermədin yelə.

* * *

Məcnun istəmədi eşqi cəfasız
– Eşqimi yaşadan hicrandır, – dedi.
– Ağır möhnətlərə qərq edən məni

Yalnız sevgim deyil, dövrandır, – dedi.
Eşq vüsal ilə yaşaya bilməz.
Eşqə hicran gərək, firqət gərəkdir.
Eşqin möhnətiylə çırpınan ürək
Dünyada əbədi döyünəcəkdir...

* * *

O pərişan saçlı, sözü gileyli
Könlünün səsiylə danışdı Leyli:
– Eşqin vüsal ilə açar çiçəyi
Aşiqsiz neyləyər könül sevməyi?!
Olsaydı azacıq ixtiyar məndə,
Düşə bilməsəydim mən bu kəməndə,
Bu qızıl qəfəsdən uça bilsəydim,
Zindan qapısını açа bilsəydim,
Bir asudə nəfəs ala bilsəydim,
Eşqin ümmanına dala bilsəydim.
Doyunca udsaydım çəmən ətrini,
Duysaydım güllərin o xoş ətrini,
Məhəbbətim mənə məhrab olardı,
Nə də bu çəkdiyim əzab olardı...

* * *

İşığa boylanan çiçəkdi Leyli,
O, həyat aşiqi-gerçəkdi Leyli.
Həyatda nə şöhrət, nə şan istədi,
Demədi illərlə gəlsin səadət,
Ömründə bəxtiyar bir an istədi.
O, sevmək, sevilmək haqqı dilədi.
Daha bilmədi ki, qadın kölədi
Alınıb-satılan bir maldı gözəl,
Canlı varlıq deyil, xəyaldı gözəl.
Azad məhəbbətə yox ixtiyarı,
Hər yandan bağlıdır, bağlı yolları.

* * *

Ustadım, gecədir, ayrılaq gərək,
Ölsəm də, qalsam da qəlbimdə varsan.
Hələ ki, məhəbbət yaşar dünyada,
Sevən ürəklərdə bir ilk baharsan.

* * *

Gecədir, ulduzlar bir-bir çəkilir,
Sanki göydən qopub, yerə tökülür.
Dan yeri sökülür, açılır səhər,
Qalxır pərdə-pərdə doğma nəğmələr.
İndi başqa aləm, başqa dövrandır,
İndi nəğmələr də əlvan-əlvandır.
Məhəbbət, sədaqət indi qoşadır,
Sevən ürəkləri onlar yaşadır,
Aşiqlər köksündə vurduqca ürək,
Eşq səni özünə tanrı biləcək.

* * *

Dünyanın amansız bir qanunu var,
Nə qədər yaşasa yox olur insan.
Yalnız günəş kimi parlaq arzular,
Yox olub dünyadan köçməz heç zaman.
Sənin ülvi qəlbin, pak əməllərin
Nə qədər ürəyə işıq salıbdır.
Sənin hər möhnətin, hər dərdi-sərin
Eşqə bir abidə olub qalıbdır.
Eşqin qüdrətinə artdıqca inam,
Gözəllik nuriylə parlayar dünyam.
Bir yanı toy-bayram, bir yanı yaslı,
Bir yanı nur çiçək, bir yanı paslı
Dünyada nəsillər yaşadıqca, bil,
Sevginin cövhəri məhv olan deyil.

Hələ döyündükcə insan ürəyi,
Yaşadır sevgini onun diləyi...
Böyük məhəbbəti yaşadır zaman.
Nə qəm, illər keçir, ömür yarıdır...
Sevən ürəklərdə məşəltək yanan
Füzuli eşqinin alovlarıdır.

SEVİRƏM, SEVMİRƏM

İnsanda qüruru, ləyaqəti sevirəm.
Lovğalığı, kobudluğu sevmirəm.
Ali hissləri, yüksək niyyəti sevirəm,
sevirəm insan təbiətində
dağlar ehtişamını:
Gəncliyin coşqun səhərini,
Qocalığın müdrik axşamını.
Kişidə kişi sifətini sevirəm,
Qadında qadın incəliyini,
bir də ana məhəbbətini sevirəm...
Kin-küdurət yuvası
ürəkləri sevmirəm.
Qara arzu, dilək̀ləri sevmirəm.
Kobudu, tərsi sevmirəm,
Xoşqılığı sevirəm,
Qaranlığı sevmirəm,
aydınlığı sevirəm.
Acgözləri, hərisləri sevmirəm,
Zalımları, naqisləri sevmirəm.
Ömrü boyu ucuz şöhrət dalınca
Qaranəfəs qaçanları sevmirəm.
Yüksəlmək ehtirasıyla
diz çöküb, əl açanları sevmirəm.
Alın təriylə çörək qazanıb,
gecələri rahat yata bilənləri
sevirəm,
İnsanların üzündən

Göz yaşını silənləri sevirəm.
Axşam qaranlığını sevmirəm,
Sübhü, danı sevirəm,
Dar gündə
kömək əlini uzadanı sevirəm.
Çöllərin ətirli küləklərini
sevirəm.
Vətənimin zərif çiçəklərini
sevirəm.
Dağlardan duman çəkiləndə sevirəm,
Göydən yerə nur töküləndə sevirəm.
Dənizdə açıq maviliyi,
İnsanda mərifəti, biliyi,
Vətənə fayda verənləri sevirəm.
İnsanı insana qardaş bilənləri,
ağır gündə qəmlənib
şad gündə gülənləri sevirəm.
Qızıl taxıl zəmiləri
ləpələndikcə vüqarlanıram.
Pambıq çöllərini sərvətim sanıram,
Vətənimin qüdrətini, sərvətini sevirəm.
Vətən oğullarının şücaətini,
Vətən qızlarının məharətini sevirəm.
Havası təmiz, göyləri şəffaf,
üfüqləri parlaq baharı sevirəm.
Azadlıq bayraqları vüqarla dalğalanan
diyarı sevirəm.

İŞIQLI ŞEİRLƏR

Mən işıq qızıyam, işıq övladı:
İşıqlı dünyadır dünyamın adı...
Zülmətə düşmənəm, işığa dostam,
İşıqla tökülür könlümə ilham.
Gözəllik pərisi könlümə yardır,
İşıqlı ilhamım nurlu bahardır.
Gözəllik hər yerdə məni cəlb edir;

Fikrim ən işıqlı yollarla gedir.
İşıqlı arzular ömrümə həmdəm, –
Mən işıq sevirəm, işıq sevirəm.

Bu dünya mənimdir, həyat mənimdir,
Onu zalımlara verə bilmərəm.
Mən işıq övladı, işıq qızıyam,
Dünyanı qaranlıq görə bilmərəm.
Zülmətlə girərəm pəncə-pəncəyə,
İşıq yandıraram qara gecəyə...
Bu dünya mənimdir, həyat mənimdir,
Ən işıqlı diyar öz vətənimdir!

* * *

Çinar kimi əzəmətlim,
Qolları Fərhad qüvvətlim,
Xoş, mehriban təbiətlim,
Sənə heyranam, heyranam.

Sən mənim uca dağımsan,
Çeşməmsən, gur bulağımsan,
Elim, obam, ocağımsan,
Sənə heyranam, heyranam.

Körpün ollam keçidlərdə,
Əlac ollam – düşsən dərdə,
Vermərəm səni namərdə,
Sənə heyranam, heyranam.

* * *

İnsan məhəbbəti gözlərdən içər,
Sonra yaşadar ürəyinin
təmiz, şəffaf bulağında.
Qönçələnər, çiçəklənər məhəbbət

Bahar çağı, gənclik çağında...
Gənclik fəsli ötər, keçər,
Payız, qış gələr.
Ömrün xəzan bağında
İsidər ürəkləri
Şirin-şirin xatirələr.

* * *

Çiçəklərim xəzan olur
sən gəlməyəndə,
Könlüm evi viran olur
sən gəlməyəndə...
Sən nurlusan, işıqlısan,
Xoş sözlü, xoş qılıqlısan,
Aralıqda hicran olur
sən gəlməyəndə...

Gəlişinlə nurlanıram,
Sevinir, uğurlanıram.
Gəlməyəndə çox yanıram,
Qəlbimdə bir tufan olur
sən gəlməyəndə.

* * *

Ömrümdən bir mavi gözlü
gəlib keçdi.
Həzin xatirələr nələr buraxdı.
Elə bil qaranlıq gecədə
Odlu bir şimşək çaxdı...
Sonra sellər, sular kimi
axdı göz yaşlarım
Ayrılığa, hicrana dözə bilmədim.
Necə girdi ürəyimə bu sevda,

Həzin xatirələr, izlər buraxdı.
Bu ayrılıq, bu hicran
açdı ürəyimdə
sağalmaz yara...
Bir də əlim çatmadı
o mavi gözlünün
yaşadığı diyara...

* * *

Könlümdə sönməyən bir işıq yanır,
Onu sən yandırdın məhəbbətinlə,
Elə bir nurlandı gözümdə cahan
Elə bil nur yağdı çiçəyə, gülə...
Onu sən yağdırdın məhəbbətinlə.

* * *

Dostluğun nazik telləri
Qırılmasın, qırılmasın.
Ürək coşqun həvəsindən
Yorulmasın, yorulmasın...
Heç bir ürək inciməsin məhəbbətdən,
Heç bir könül
darılmasın, darılmasın.
Çiçək ətri, quş nəğməsi
Qoy bürüsün bağçaları.
Təmiz olsun, möhkəm olsun
insanların etibarı...
Dostluğun nazik telləri
qırılmasın, qırılmasın,
Sevən ürək məhəbbətdən
yorulmasın.

ŞAİR ARZUSU, ANA İSTƏYİ

1

Sevgi bayramı elan edin
Dünyanın bircə gününü.
Rica edirəm, insanlar,
kin-küdurət,
soyuq nifrət,
yamanlıq, bədxahlıq
xeyirliyə, yaxşılığa
bağışlasın qoy ömrünü.
Bu bir şair arzusudur,
Bu bir ana istəyidir.
Kövrək, körpə bu balalar
zərif ömür çiçəyidir.
Topların qorxunc səsindən,
Kor əjdaha nəfəsindən
bizlər qorumalıyıq
gələcək nəsilləri,
parlaq və dinc illəri.
Qoy zəncir görməsin
azad biləklər,
Dolaşsın hər yanı
azad küləklər...
Zəhmət, sevinc olsun,
əzab olmasın.
şəhərlər dağılıb
xarab olmasın.
Tarixin varaqları
daha qanla dolmasın.
Şadlıq, sevinc olsun,
qəm və hicran olmasın.

2

Göyləri mavi, təmiz görəndə
açıb qollarımı fərəhlə
qucaqlamaq istəyirəm.

Məzlumlara, haqsızlara
bu işıqlı dünyada
bir haqq istəyirəm.
Vətən göylərinə vahiməylə
baxan olmasın,
başına matəm örtüyü
taxan olmasın.
İşıqlı dünya yurdsuzlara
işıq saçsın doğma
ana kimi,
Yurdsuz, yuvasız
sərgərdan insanlar
dolaşmasın dəli-divanə
kimi...
Pozulmasın bu vüqarlı
dağlarımın ehtişamı;
Səksəkədən sarsılmasın
körpələrin dinc axşamı.
Mavi dəniz ləngər vurub
sakit-sakit yırğalansın.
Sahil boyu işıqlarım
qızıl-qızıl sırğalansın
Yurd-yuvası dağılmasın
bu günahsız körpələrin.
Axı firlanır dünyamız
üstündə tək bir mehvərin...

3

Dünyanın hamıya
çatar günəşi,
suları, havası, odu,
atəşi.
Bir körpə fərəhi,
körpə gülüşü
ömrə bəzək olsun,
həyata dilək,

balaları heç vaxt
səfil görməyək.
Körpələr həyatın
bahar fəslidir,
dinclik, arzu, fərəh,
ümid nəslidir,
Səsini azadlıq
səsinə qatsın.
Fəsillər dalınca
fəsillər gəlsin,
Hünərli, arzulu
nəsillər gəlsin.

BİR KƏLMƏ SÖZ

Deyirəm vətənim unutmaz məni,
Xalqın ürəyində döyünərəm mən.
Bircə kəlmə sözüm qalsa dünyada,
O bircə kəlməylə öyünərəm mən.

"Həyat" da, "ölüm" də bircə kəlmədir,
Amma mənaları dərindən dərin.
Bir yeni fikirlə, bir yeni sözlə,
Əbədiyyət olar tarixdə yerin.

"Azadlıq" sözü də bircə kəlmədir,
Barmı bu dünyada ona bərabər.
O bir afətdir ki, onun yolunda,
Ömrü qurban vermiş neçə oğul, ər.

"Vətən" də, "qürbət" də bircə kəlmədir,
Vətəndən müqəddəs bir məna varmı?!
İnsan vətənindən ayrı düşməyi,
Qürbətdə ölməyi arzulayarmı?!

Yoxsa məhəbbəti unutmuşam mən,
Həyatın mənası odur bəlkə də,
Nə bir ot göyərər, nə ağac bitər
Bəlkə viran qalar onsuz ölkə də.

"Ana" müqəddəsdir, uludur adı,
Tapınar, ibadət edərik ona.
Ana – övladının bir cüt qanadı,
Həyata nur saçan anadır, ana.

Deyirəm vətənim unutmaz məni,
Xalqın ürəyində döyünərəm mən.
Bircə kəlmə sözüm qalsa dünyada,
O bircə kəlməylə öyünərəm mən.

MƏHSƏTİ

(*Dramatik poemadan bir parça*)

Məhsəti xanım öz otağında təkcə oturub şeir yazır. Bir az sonra başını qaldırıb yazdığı şeri oxuyur.

Unudulmuş da atılmış gülü-sevda kimiyəm.
Gözlərindən çəkilən bir dəmi-röya kimiyəm.
Həcr əlindən ürəyim qana dönən şamü-səhər,
Üzünün nurinə həsrət şəbi-yelda kimiyəm.
Neyləmişdim sənə mən böylə vəfasız çıxdın.
Həsrətindən üzülən bülbülü-şeyda kimiyəm.
Hər keçən yolçudan ağlar gözüm əhval sorar,
Hər buluddan su uman bir quru səhra kimiyəm.
Sənə bel bağladım, atdın məni ey munisi-can
İndi sənsiz yaşaram, tərki-dünya kimiyəm...

(*Həmayil tələsik içəri girir*)

HƏMAYİL
Məhsəti, buraya gələcəkdir xan,
Nə edək, əzizim, bir söylə aman.
Səndən almaq üçün razılıq sözü
Yanına gələcək lap xanın özü...

MƏHSƏTİ
Qoy gəlsin, nə olar, nə var ki, bunda
Bir az da dururuq xan qulluğunda!
İtaət etməyə borcludur övlad,
Belə əmr eləyir bizə bu həyat.

HƏMAYİL
Yox, yox, qorxu bilməz bir varlıqsan sən.
Özün də keçməzsən heç dediyimdən
Qarışıq yuxular görmüşəm yaman,
Səhərdən çıxmırsan heç xəyalımdan.

Gördüm qara bulud aldı göyləri,
Sis, duman bürüdü bütün hər yeri
Bir qara div çıxıb səni apardı,
Yox olub göylərin dibinə vardı,
Ağladım dalınca, çırpındım yerdə,
Sən isə yox oldun dərin göylərdə...

MƏHSƏTİ (*onu qucaqlayaraq*)
Heç keyfini pozma, gözəl Həmayil,
Bu ki bir yuxudur, həqiqət deyil.
Oxu, bir az oxu, könlüm açılsın,
Səsindən dünyaya fərəh saçılsın.
Mənim də ürəyim tutqundur yenə,
Boşalmır yazdıqca bu dərdli sinə...
Həzin bir şey oxu mənə dur bir az,
Naz eləmə, bəsdir, sən ey sərvinaz!

(*Çəngi götürüb çalmaq istəyir, Həmayil cəld oxuyur*).

HƏMAYİL (*oxuyur*)
"Qoyun deyil, sürülərə qatam mən,
Öküz deyil, çodarlara satam mən.
İgid deyil, qucaqlaşıb yatam mən,
Ana, məni bir nadana verdilər,
Babalıma, günahıma girdilər..."

MƏHSƏTİ (gileyli)
Mən ki həzin bir şey istədim səndən.

HƏMAYİL
Baş üstə, bu saat oxuyaram mən
(*yenə oxuyur*)

"Öküz deyil, qucaqlaşıb yatam mən...".

MƏHSƏTİ
Dərdin, çorun elə igiddir sənin.

HƏMAYİL
Bəs sənınki nədir, Məhsəti xanım,
Neçindir görəsən bu ahü-ənin?!

(*Bərkdən gülüşürlər, xan içəri girir, Həmayil tez o biri qapıdan qaçır*)

XAN
Qızım, keyfin sazdır, gülürsən yenə,
Sənin gülüşlərin şəfadır mənə.
Belə gülərüzlü görsəydim hər an,
Səni bu dünyada, ölməzdim, inan!

MƏHSƏTİ
Gülüş gəncliyindir, yaraşır ona.

XAN
Doğrudur, əlbəttə, mehriban sona!
Gülüş çox yaraşır səntək gözələ.

MƏHSƏTİ
Nə fayda, gəncliyim döndü xəzələ...

XAN
Neçin, gözəl maral, dağınsan belə.
Yenə kim toxunmuş bir incə gülə...

MƏHSƏTİ
Nə qədər mehriban olmusuz, ata,
Əcəb, nədir səbəb bu iltifata?
Könlüm viran oldu əzəldən mənim,
Olmadı bir kimsəm, bir istəyənim...
Ta uşaq vaxtından yetim qaldım mən,
Doymadım heç ana məhəbbətindən.
Könlüm açılmadı heç bu yerlərdə,
Anamı saldınız bir yaman dərdə...
Dağlar gəliniydi saf və ləkəsiz,
Onu bir qəfəsə saldırdınız siz.
O uca dağların ağ göyərçini,
Bu mənhus sarayda yedi içini.
Onu iylədiniz, atdınız bir gün,
Həlak eylədiniz ömrünü bütün.

XAN
Qızım, bu nə sözdür, bunlar nə demək,
Bu keçmiş işlərdən gəl daha əl çək,
Sənin yaradaram səadətini,
Adını, sanını və şöhrətini.
Yalnız sözlərimə qulaq as mənim,
Atanam, deyiləm sənin düşmənin.
Sənin gözəlliyin, sənin camalın.
Ey dilrüba sənəm, ağlın, kamalın
Aləmə məşhurdur, şöhrətin daşır,
Sənə bir taxti-tac yalnız yaraşır.
Məlikə olmağa ləyaqətin var,
Şahların yanında min hörmətin var.
Sənə elçi gəlir Şirvandan bəri,
Sənə dikilmişdir elin gözləri...

MƏHSƏTİ
Heç layiq deyiləm bu tərifə mən,
Siz qızım dediniz mənə əzəldən.

XAN

Sənə heç yaraşmır açıq dolanmaq,
Sinədən söz deyib alışıb-yanmaq.
Eşitdim atanın düşməninə sən
Dostluq göstərirsən, könül vermisən.
Qızım, etdiyinin hüdudunu bil,
O sənə yaraşan bir insan deyil.

MƏHSƏTİ

Ata, məhəbbətin hüdudu olmaz,
Bu insan qəlbidir, düşünün bir az.
Könül çırpınırkən eşq ilə hər an,
Onu söndürməkdən acizdir insan.

XAN

Bilirəm o şeyxin dərsidir bunlar,
Onda nə insanlıq, nə də həya var.
Həm dinsiz, imansız bir insandır o,
Ona qulaq asma, çox yamandır o.

MƏHSƏTİ

Ustad insanların ən müqəddəsi,
Azad bir vicdanın ölməyən səsi
Onlarla gəlmişdir bu kainata,
Böyük bir zinətdir o bu həyata...

XAN

Tərif dinləməyə gəlməmişəm mən.

MƏHSƏTİ

Gəlmənizi xahiş etmədim sizdən.

XAN

Xan qızı, yaraşmaz sənə bu rəftar!

MƏHSƏTİ

Ata, həqiqətdə eyibli nə var?!

XAN

Özgə bir niyyətlə gəlmişdim bu gün,
Ağlımı başımdan çıxartdın bütün.
Elçilər göndərir o Şirvan xanı,
Şöhrəti tutmuşdur bütün cahanı.
(*Yumşaq və mehribanlıqla*)

Sən xoşbəxt olarsan onunla inan,
Rədd cavabı vermə, Məhsəti, aman!

MƏHSƏTİ (*məyus, özünə*) –

Nə şöhrət istədim, nə şan istədim,
Bu dünyada təmiz vicdan istədim,
Demədim illərlə gəlsin səadət,
Ömrümdə bəxtiyar bir an istədim.

XAN

Bəxtiyar günlərin gələcəkdədir,
Qızım, bu dalğınlıq, bu qüssə nədir?
Sandım şad edəcək səni bu xəbər,
Neçindir bu məyus, bu qəmli sözlər?!

MƏHSƏTİ

Canan həsrətiylə yanırkən ürək,
Dünyanın şöhrəti, malı nə demək?!
O nurdan qurulan saf məhəbbəti,
Heç satın alarmı bir xan şöhrəti?!
Mənim sevgilim var uca dağlarda,
Könlümü əmanət qoymuşam yarda...

XAN

Məhsəti, həddini keçir bu daha,
Heç səbəb görmürəm belə coşmağa,
Əmr edirəm sənə, yola hazırlaş,
Gəlin gedəcəksən Şirvana birbaş!

(Xan acıqlı otaqdan çıxır. Məhsəti başını əlləri içinə alıb oturur. O biri qapıdan Nizami içəri girir. Məhsəti onu görcək qalxıb ona tərəf yüyürür).

MƏHSƏTİ

Ustad!

NİZAMİ

Mənim şair qızım yenə qəmlidir,
Yoxsa ağlamısan, gözün nəmlidir.

MƏHSƏTİ

Könlüm açılmayır, nədəndir ustad,
Sönmüş bir ocaqdır sanki kainat.
Gözümdə nuru yox günəşin də bax,
Mənimçün dünyada sən varsan ancaq.
Məni əzir, ustad, sıxır bu dövran,
Heç könlüm açılmır nədənsə inan!

NİZAMİ

Sən bir bəzəyisən bu kainatın,
Kədərlə keçməsin bu gənc həyatın.
Sabahın yelləri oxşasın səni,
Götürsün üstündən qara kölgəni.

MƏHSƏTİ

Eh, kaş bu saraydan, bu dəbdəbədən
Ömrüm boyu, ustad, iraq olaydım!
O sənin kimsəsiz, yoxsul evində
Həzin-həzin yanan çıraq olaydım.

NİZAMİ

Sən ey mələksima, ey nazik ürək,
Sən olan evlərdə çıraq nə gərək?!

MƏHSƏTİ

Gəl, ustad, qəlbimi açma, yaradır,
Xan mənim ağlımı, gözəlliyimi
Bir oyuncaq kimi satmaq istəyir,
Eşqimi, hissimi, məhəbbətimi
Şöhrət girdabına atmaq istəyir.

NİZAMİ

Gəncliyin yaraşmır üzünə məlal,
Ümidin dostudur bil ki, istiqbal.
Sənin saf qəlbindən qopan hər fəğan
Ölməz, əsrlərlə yaşayar, inan!

MƏHSƏTİ

Könlümün dərdləri gəlməzdir saya,
Anamın yanınca düşdüm saraya...
Güvənib ağlıma, istedadıma
Xan da "qızım" dedi mənim adıma.
Anam öz atamdan mənə deyərdi,
Bitməzdi anamın bu müşkül dərdi,
Son bahar fəslində bir axşamçağı,
Yarıqaranlıqdı onun otağı.
Töküb göz yaşını ağladı anam,
Dedi: "Yazıq qızım, gülüzlü sonam.
Əzəldən bədbaxtdır bir qız övladı..."
Məni qucaqlayıb xeyli ağladı,
Sonra sakit yumub gözünü yatdı,
O axşam əbədi yuxuya batdı.

NİZAMİ

Qapılma, acıdır xatirələr bil.

MƏHSƏTİ

Susdurmaz onları nə hiss, nə aqil!..
Çox şey istəmədim mən ki həyatdan.

NİZAMİ

Azadlıq eşqiylə yaşayır insan!..

MƏHSƏTİ

Dağlarda qurulan çoban dəyəmiz
Qəlbimdə dünyada hər şeydən əziz.

NİZAMİ

Ən incə duyğular, ən saf əməllər,
Qəhrəman analar, təmiz gözəllər
Çoban dəyəsindən çıxıb yetişər.
Onlardadır əsl mərdlik və hünər.
Sən də bu dağların doğma balası,
Sən də at qəlbindən ələmi, yası.
Belə bir nəslin də qızı ağlarmı?!

MƏHSƏTİ

Bir sorun dünyada bəxtiyar varmı?!

NİZAMİ

Səni öz qoynunda bəsləyən dağlar
Sənin avazını qəlbində saxlar.
İnan gələcəyə, bəslə etiqad,
Boğulmaz şairin qəlbində fəryad.

MƏHSƏTİ

Sənətin tükənməz xəzinəsindən
Əlimdə qiymətli bir gövhərim yox.
Rayihələr saçan şeir bağında
Açılan ətirli süsənbərim yox.
Böyük şairlərin yaratdıqları
Bu əlvan dəstədə lalələrim yox.
Nə Şirinki kimi xoş qəzəllərim,
Nə də Fərhad kimi bir hünərim yox.

NİZAMİ

Sədəflə bəslənən incidir, dürdür,
Su deyil bu axıb gedən, ömürdür.
Şikayət eyləmə yoxsulluğundan,
Baxsan almasın da əsli kömürdür.
Gəncsən, çox yaradıb, yazacaq əlin,
Lakin sarsılmasın eşqin, əməlin.
Qoyma ki, büdrəsin əlində qələm,
İnsanın ən böyük düşmənidir qəm...

Sönməz əbədiyyət, yüksələr günəş,
Açılar üfüqdə bir özgə aləm...
Yaşa alnı açıq, qəlbi ləkəsiz,
Yaşa bu dünyada günəşdən təmiz.
Nə yalançı şöhrət, nə yalançı şan
Bil ki, qoymamışdır tarixdə nişan.
Bağlansın adınla elin baharı,
Adınla ucalsın yurdun vüqarı!
Səni yetişdirən bu ana torpaq
Sənin sənətinlə abad olacaq.
İnan, gələcəyin böyük adı var,
Yaşar yer üzündə insan bəxtiyar!

(Həmayil tələsik içəri girir).

HƏMAYİL

Məhsəti! Vurdular Cahangiri, gəl!

MƏHSƏTİ

Kim qıydı, kim qıydı ona, hansı əl?!
Bu nədir, xilas et, amandır, ustad,
Bunca dərdlə insan etməzmi fəryad?!

(Ağlayaraq Nizaminin qolları arasına düşür, Nizami və Həmayil onu aparırlar).

SEÇMƏ TƏRCÜMƏLƏR

Məhsəti Gəncəvi

RÜBAİLƏR

Xalqın başında gər olsan da bir tac,
Ağladar səni də bir gün ehtiyac.
Xalqın dərdinə qal, ona yaxın ol,
Qorx o gündən özün olasan möhtac.

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhləninde hazırdır yəhər.

Qızıl dedi: "Mənəm hər günə gərək,
Duz kimi möhtacdır mənə hər xörək.
Məni ölü kimi basdırmayın siz,
Həyat üçün mənəm ən yaxın kömək".

Boy-buxunu, çiyni nöqsanlıdan dad,
Namərd kişilərdən yaxşıdır arvad.
Bivəfa dostlardan düşmən yaxşıdır,
Etibarsız dostu yadından çıxart.

Nədən səni belə yandırdılar, şam,
Yaddan çıxartdılar burda bir axşam?
Sən özün dilə gəl, neyləsin, əgər
Yaranmışsa ancaq yanmaqçün adam?!

Qəminin eşqilə cahana gəldim,
Canımı eşqinə qurbana gəldim.

Bu könlüm qəminin məkanıdır, yar,
Qəmini çəkdikcə mən cana gəldim.

Xərabatdan çıxan bir ay ucaldı,
Fələyin damında bir çadır saldı.
Qəflətən ucaldı Hatifdən bir səs:
"Bu dünya bir saman çöpünə dəyməz?!"

Arvadla kişini bağlayar kəbin,
Bu işə yol verir şəriət, ayin.
Mənimsə kəbinim bir rübaidir,
Varmı bu kəbinə yol verən, bir din?

O dərya təbinlə bəhsə girərək,
İstəsən lovğalıq etməsin fələk;
Lütfi-kərəm qılıb buyur saqiyə,
Sənin piyaləni doldursun tək-tək.

Əlimdə qədəhlə sənin küçəndən
Hər gecə, sevgilim, sərxoş keçdim mən.
Eşqi şərab kimi tökdüm qədəhə,
Huşa getdim, düşüb sındı əlimdən.

Dur çəngi dindirək, bir ülfət qataq,
Şərab içək, arı, namusu ataq!
Hiylə şüşəsini çalıb daşlara,
Canamazı bir cam şəraba sataq.

Dedim: məsləhət ver bizə, ey ürək,
Şirin meydən içək, acıdan içək?
Dedi acıdan iç, yoxsa Şirinə
Vurğun deyilsən ki, sən də Fərhadtək.

Bu vüsal gecəsi, amandır, yatma!
Murada yetməyə zamandır, yazma!
Xumar gözlərini qapama, ey yar,
Bu, elə düşməyən bir andır, yatma!